

# Hücum əmrinizə müntəzirik, cənab ALİ BAŞ KOMANDAN!

## Prezidentin poçtundan

*Ermənistan ordusunun atəşkəsi mütəmadi olaraq pozması, qoşunların təmas xətti boyu təxribatlarını genişləndirməsi, eləcə də dinc əhalini, yaşayış məntəqələrini ağır silahlardan atəşə tutması Azərbaycan tərəfini ciddi cavab tədbirləri görməyə vadar etdi. Ordumuz qısa müddətdə düşmənə sarsıdıcı zərbələr endirib real gücünü göstərdi. Hərbi arsenalının və potensialının məhdud qismindən istifadə edən Azərbaycan Silahlı Qüvvələri əks tərəfin özünə aşıladığı "məğlubedilməzlik" mifini dağıtdı. Nizami hərbi birləşmələrimiz işğal altındakı əraziləri azad etmək qüdrətində olduğunu döyüş meydanında qətiyyətlə isbatlamaqla yanaşı, bunu tərəddüd edən hər kəsə, xüsusilə də özlərindən müştəbeh ermənilərə və onların havadarlarına qəbul etdirdi.*

*Azərbaycan xalqı, arxa cəbhə də öz milli-mənəvi keyfiyyətlərini ortaya qoydu: hər kəs ayağa qalxıb torpaqlarımızın azad edilməsi amalı ətrafında yumruqtək birləşdi. Hər bir azərbaycanlı qələbə naminə öz xidmətlərini, canını-malını təklif etdi. Mütərəqqi dünya ictimaiyyəti də Azərbaycana dəstək verdi, haqqın tərəfini tutdu. Təkcə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəsmi internet saytının poçtuna daxil olan çoxsaylı məktub və müraciətlərin məzmununa nəzər salmaq kifayətdir ki, xalqımızın birlik ruhu, döyüş əzmi duyulsun, dünya xalqlarının məsələyə ədalətli münasibəti görünsün.*

**Bakının Binəqədi rayonundan Nicat Vahidoğlu** keçirdiyi hissləri və vətəndaş mövqeyini dövlət başçısına, Ali Baş Komandana belə çatdırıb: "Son günlərdə ordumuzun düşmən həmlələrinə layiqincə cavab verməsinə və bir neçə yaşayış məntəqəsinin işğaldan azad olunmasına görə Sizə minnətdarlığımı bildirirəm.

Sevincimin həddi-hüdudu yoxdur. Müraciətimin səbəbi isə birdir: səfərbərlik əmri verin. Orduya, ön cəbhəyə gedib döyüşməyə hazıram. Dövlətimə, vətənimə layiqli övlad kimi qulluq etmək, erməni təcavüzkarlarına qarşı döyüşmək istəyirəm. Bir vətəndaş olaraq Sizin daxili və xarici siyasətinizi dəstəkləyirəm. İnanıram ki, qələbə bizimlədir. Azərbaycan xalqı Sizə güvənir, Sizdən səfərbərlik əmri gözləyir".

**Paytaxt sakini Tural Hüseynov** son hadisələrin fonunda qərar verib ki, artıq ön cəbhədə xidmət göstərməli, döyüşməlidir: "Cəbhədə ordumuzun göstərdiyi şücaət, işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda atılan addımlar məni döyüş bölgəsinə yollanmağa vadar edir. İndi xalqıma xidməti ön cəbhədə göstərməyin vaxtının çatdığını düşünürəm.

Cənab Ali Baş Komandan, əmrinizi gözləyirəm. Hər bir azərbaycanlı kimi, mən də cəbhədə əsgər qardaşlarımla çiyin-çiyinə döyüşmək istəyirəm".

**Bakıdan yazan Leyla Namazzadə** müraciətində aslan ürəkli Azərbaycan qadınlarının ruhunu ifadə edir: "Son günlər xalqımız yüksək ruh yüksəkliyi, sevinc içindədir. Hamımız Sizə dayaq durmağa, habelə Vətən uğrunda vuruşmağa hazırıq".

Ölkənin ikinci böyük şəhəri **Gəncə** də mənən səfərbərdir. Gəncəli gənclər adından Prezidentə müraciət edənlərdən biri də **Kənan Əliyevdir:** "Biz gənclər Sizin əmrinizi gözləyirik. Biz gənclər üçün böyük fəxr olar ki, "İlhamla irəli" deyib düşmənlərimizi məhv edək, qələbə qazanaq".

**Xırdalan şəhərindən Elvin Novruzov** əmrə müntəzir olduğunu, cəbhəyə göndərilməsini xahiş edir: "Cənab Prezidentim, bir vətəndaş olaraq bu ölkənin, torpağın, millətin uğrunda döyüşməyə, Sizin əsgəriniz olmağa hazıram. Hər zaman Sizin yanınızdayıq və əmrinizi gözləyirik. Cənab Prezident, mənim könüllü olaraq ordu sıralarına qoşulmağımla əlaqədar göstəriş verməyinizi xahiş edirəm".

**Şirvan şəhərində məskunlaşmış zəngilanlı Eldəniz Ələkbərov** özü və dostları adından həyəcanla yazır: "Möhtərəm Ali Baş Komandan, öz adımdan və dostlarım adından Sizdən xahiş edirəm ki, ümumi səfərbərlik elan edəsiniz və biz öz dədə-baba torpaqlarımızı Sizin rəhbərliyiniz altında geri qaytaraq. Mən özüm Zəngilan rayonundan məcburi köçkünəm, ən böyük arzum Qarabağımızın, Zəngilanımızın geri qaytarılmasıdır. Bu yolda canımdan keçməyə hazıram, yetər ki, Siz əmr verin".

**Zərdabdan Vüqar Rəhimov** Ali Baş Komandan İlham Əliyevə ünvanladığı məktubda yazır: "Cənab Ali Baş Komandanım, çıxışlarınızda dəfələrlə bildirmisiniz ki, erməni əsgərləri bizim torpaqlardan çıxmasalar, ordumuzun cavabı ağır olacaq. Amma düşmən buna məhəl qoymurdu və nəhayət, onlar qüdrətli Azərbaycan Ordusunun gücünü gördü".

**Biləsuvar sakini Nəriman Cəfərov** öz hiss və düşüncələrini belə ifadə edir: "Cəbhədə əldə olunmuş qələbələrə görə Sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Düşmənə vurulan sarsıdıcı zərbələr hər bir azərbaycanlını ürəkdən sevindirir. Mən də öz növbəmdə hər an köməyimi göstərməyə hazıram".

**Goranboylu İbrahimxəlil Hüseynov** müharibə veteranı və əlilidir. O da illərlə köksündə gəzdirdiyi istəyini dilə gətirib: "Mən I Qarabağ müharibəsində sonadək fəal iştirak etmişəm, döyüşlərdə iki dəfə ağır yaralanmışam, ikinci qrup müharibə əliliyəm. Sizin cəsarətli və qətiyyətli çıxışınız hamı kimi, məni də qürurlandırdı. Mən yenidən döyüşlərdə iştirak etmək istəyirəm.

Cənab Prezident, Vətən uğrunda döyüşdə iştirak etmək hər bir azərbaycanlı üçün böyük şərəfdir".

**Lerikdən Bəhruz Rzayev** düşmənlə üzbəüz hərb meydanında döyüşmək üçün cəbhəyə könüllü getmək niyyətindədir: "Birbaşa cəbhədə gedən proseslərin içində olmaq istəyirəm. Mənfur düşmənlərimizə qarşı vuruşmağı özümə borc bilirəm. Bir Azərbaycan vətəndaşı kimi könüllü surətdə cəbhə xəttinə yollanmaq fikrindəyəm".

*Qürurverici haldır ki, hansı ölkədə yaşayıb işləməsindən asılı olmayaraq, dünya azərbaycanlıları həmrəylik göstərərək əslində ruhları, canları ilə Vətən eşqi ilə alışıb yandıqlarını, milli maraqları daha üstün tutduqlarını bir daha bariz şəkildə göstərirlər. Dünyanın hər yerindən Prezidentin poçtuna məktub yağır. İnsanlar arzu və istəklərini böyük coşqu ilə ifadə edirlər.*

**İsraildə yaşayan Eyyub Eyyubov** da vətənpərvərlik hissləri ilə Ali Baş Komandana müraciət etməyi özünə borc bilib: "Mən İsraildə yaşamağıma baxmayaraq, Azərbaycanda baş verənləri mətbuat vasitəsilə diqqətlə izləyirəm. Bir azərbaycanlı kimi Vətəni qorumaq, Dağlıq Qarabağımızı işğaldan azad etmək mənim borcumdur".

**Namiq Cəfərov Rusiyanın Samara vilayətindən yazır:** "Son günlər cəbhədə baş verənlər barədə də məlumatlıyam. Ordumuzun qüdrəti başımızı ucaldır. Allahdan şəhidlərimizə rəhmət diləyirəm. Cənab Ali Baş Komandan, tam əminik ki, ordumuz zəfər çalacaq. Biz Rusiyada yaşasaq da, əmrinizlə döyüşə getməyi səbirsizliklə gözləyirik".

**Digər rusiyalı, əslən azərbaycanlı Mübariz Hacıyev hadisələri Sankt-Peterburqdan** dəyərləndirərək Prezidendə təşəkkürünü bildirir: "Son günlər cəbhədə baş verən döyüşlərdə Azərbaycan Ordusunun qələbəsi bizi çox sevindirir. Qüdrətli ordu yaratdığınıza görə Sizə minnətdarlığımızı bildiririk. Biz Sizə və ordumuza inanır və güvənirik".

**Uzaq Kanadadan Ali Baş Komandana müraciət ünvanlayan Mirşakir Əzizov** vətən uğrunda canını fəda etməyə hazır olduğunu elan edir: "Azərbaycandan uzaqlarda yaşamağımıza baxmayaraq, ürəyimiz hər zaman Vətənimiz ilə birgə döyünür. Burada Azərbaycanımızı təbliğ etməklə yanaşı, 10 illərdir erməni yalanlarının qarşısını almaq üçün mübarizə aparırıq.

Hər an canımızla, qanımızla torpaqlarımız uğrunda vuruşub qalib gəlməyə, lazım gələrsə, Vətən uğrunda şəhid olmağa hazırıq".

*Bu müraciətlərin içində başqa xalq və millətlərin də nümayəndələri kifayət qədərdir. Amma qardaş Türkiyədən gələn məktublar daha çoxdur. Türkiyə dövləti və xalqı bir daha qardaş sədaqəti göstərərək bizə ruh verdi. Gün dostla düşmənin ayırd olunduğu tarix idi və Türkiyə həmişə olduğu kimi, bu dəfə də ən yüksək dəyərlər üzərindən bizimlə canbir-qəlbbir olduğunu səmimiyyətlə nümayiş etdirdi. Bu, doğma Türkiyədən gələn məktublarda da geniş əks olunub.*

**Türkiyə paytaxtından Əli İlhan Özdemir** yazır: "Hörmətli cənab Prezident.

Təmas xəttində Ermənistan silahlı qüvvələrinin törətdikləri təxribatların qarşısının alınması zamanı Azərbaycan əsgərlərinin şəhid olması ilə əlaqədar Sizə, qardaş xalqımıza başsağlığı verirəm. Şəhidlərimizə Allahdan rəhmət, yaxınlarına səbir diləyirəm.

Bu çətin günlərdə bütün dualarımız sizinlədir".

**Ankaradan Nalan Ongun** da ailəsi adından mənəvi dəstəklərini ifadə edir: "Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə bağlı aparılan əməliyyatlarda azərbaycanlı qardaşlarımızın şəhid olması xəbərini Ongun ailəsi olaraq dərin kədər hissi ilə aldıq. Qardaşlarımızın şəhid olmasından mütəəssir olduğumuzu və bu kədərinizə şərik olduğumuzu Sizə bildirmək istəyirəm".

**İstanbuldan Mehmet Balioğlu** Azərbaycanın dövlət başçısına "Prezidentim" deyə müraciət edir, əmrə müntəzir olduğunu bildirir: "Hörmətli Prezidentim İlham Əliyev!

Cəbhəboyu zonada həyata keçirilən əməliyyatlar zamanı şəhid olan qardaşlarımızla əlaqədar Sizə və Azərbaycan xalqına başsağlığı verirəm.

Sizin apardığınız mübarizə mənim, bütün Türkiyə vətəndaşlarının mübarizəsidir. Biz hər zaman yanınızdayıq və Azərbaycandan olan qardaşlarımızla çiyin-çiyinə döyüşmək üçün əmrinizi gözləyirik".